**Kazus**

10 və 19 iyul 2007-ci il tarixində 2 silahlı oğurluq hadisəsi baş vermişdir. Bu, 23 iyul 1997-ci ildə polis tərəfindən hazırlanmış hesabatdan irəli gəlir, belə ki, oğurlanmış malların ərizəçilərə məxsus olan şirkətə aid anbarda gizlədildiyinə dair sübut vardır. Sonuncuların cinayətlərdə şübhəli bilinən şəxslər ilə telefon əlaqəsində olduğu da müəyyən edilir.

18 dekabr 2007-ci il tarixində prokuror ərizəçilər barədə həbs qətimkan tədbiri seçilməsi üçün müraciət etdi. 22 dekabr 2007-ci il qərarında məhkəmə vəsatəti təmin etdi.

23 dekabr 2007-ci ildə ərizəçilər həbs olundu və istintaq təcridxanasına aparıldılar. 24 dekabr 2007-ci ildə onlar həmin qərardan apellyasiya şikayəti verdilər.

7 yanvar 2008-ci il tarixində keçirilmiş qərarla məhkəmə ərizəçilərin həbs qətimkan tədbirini ev dustaqlığı ilə əvəz etdi. Qərar 10 yanvar 2008-ci ildə məhkəmənin dəftəxanasında qeydiyyatdan keçdi. Hesab olundu ki, əsaslı şübhə var və ərizəçilər analoji hüquq pozuntusu törədə bilərlər. Məhkəmə qərara aldı ki, baxmayaraq ki, "sübutların toplanması üçün gözə çarpacaq dərəcədə risklər" yoxdur və ev həbsi kimi daha az məhdudlaşdırıcı tədbirin tətbiqi daha uyğundur. Tədbir ərizəçilərin öz evlərində qalmalarını və yalnız səlahiyyətli şəxslərin əvvəlcədən icazəsi ilə evlərini tərk edə bilmələrini tələb etdi.

7 yanvar tarixli qərar 10 yanvar 2008-ci ildə ərizəçilərə təqdim edildi. Qərara görə, onlar saxlanıldıqları istintaq təcridxanasından dərhal evlərinə getməli idilər. Lakin, onları müşayiət etmək üçün polis əməkdaşları olmadığından onların transferi 13 yanvar 2008-ci ilə kimi gecikdirildi.

*Ərizəçilər onların istintaq təcridxanasında 7 yanvardan 13 yanvara kimi saxlanılmalarını qanunsuz olduğunu bildirdilər.*

*Hökümət iddia etdi ki, ev dustaqlığı da azadlıqdan məhrum edilmə sayılır və həmin qətimkan tədbiri məhkəmə qərarı əsasında həyata keçirilmişdi, belə olduğu halda ərizəçinin transferində gecikmə Konvensiyanın 5-ci maddəsinin pozulmasına səbəb olmamışdır.*

Sizcə, hazırki işdə Konvensiyanın 5-ci maddəsi pozulubmu?

Mancini İtaliyaya qarşı iş

*Hazırladı: Günel Sevdimalıyeva*